# Qubada turizm hədəfləri dəyişir



İlin elə fəsli olmaz ki, Qubada yerli və ya əcnəbi turistlə rastlaşmayasan. Azərbaycana gələn qonaqlar böyük həvəslə Qubanı görməyə can atır, bir neçə günlük də olsa, bu qədim və gözəl şəhəri gəzib-dolaşmaq, tarixi memarlıq abidələri, səmimiyyəti, mehribanlığı və tolerantlığı ilə qonaqları heyran qoyan yerli əhalinin adət və ənənələri, müxtəlif dini konfessiyaların nümayəndələri ilə yaxından tanış olmaq istəyirlər. Bu da təsadüfi deyil. Quba turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrimizdən biridir. Burada müasir turizm infrastrukturu yaradılmış, yeni istirahət mərkəzləri, hotellər tikilib istifadəyə verilmişdir.

Hazırda Qubada görülən abadlıq, tikinti-quruculuq və yenidənqurma işlərinə ciddi nəzarət olunur. Həm yeni binaların tikintisində, həm də tarixi abidələrin bərpasında şəhərin özünəməxsus milli memarlıq üslubunun, keçmişlə müasirliyin harmoniyasının qorunub saxlanılmasına xüsusi fikir verilir. Uzun illər davam edən bu cür quruculuq işləri sayəsində müasir memarlıq abidələri ilə zəngin olan yeni Quba formalaşmış, köhnə Quba isə çoxəsrlik gözəlliyini qoruyub saxlamışdır.

Əvvəl turistləri bu yerlərin zəngin flora və faunası, bənzərsiz təbii gözəllikləri cəlb edirdisə, indi qonaqlar üçün Quba müasir Azərbaycan şəhəridir. Qudyalçayın iki sahilində qərar tutan, paytaxtdan cəmi 170 kilometr şimalda yerləşən bu şəhər yeni görkəmi ilə nəinki Azərbaycanın, eləcə də bütün Qafqazın cazibədar yaşayış məskənlərindən sayılır. İsti aylarda yaşıllığı və sərinliyi ilə göz oxşayan və ruha dinclik gətirən meşələri, qışda bəyaz qardan zirvələrinə örpək vuran dağlar, il boyu yaşıl səməni xonçasına bənzəyən vadilər ilin bütün fəsillərində ziyarətçiləri heyran edir.

Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzləri, açıq səma altında muzeyə çevrilən Xınalıq kəndi, qədim xalçaçılıq sənətinin şöhrətini bərpa edən yeni xalçaçılıq məktəbləri, onlarca tarixi abidə, adına əfsanələr qoşulan qədim yaşayış məskənləri istənilən qonağın yaddaşına zəngin və əvəzsiz xatirələr həkk edir.

İstirahət mərkəzlərinin təkcə xarici görkəmi deyil, daxili xidmətləri də müasir qaydalara cavab verməlidir. Qubada bunu yaxşı bilirlər və bu səbəbdən ilin bütün fəsillərində fəaliyyət göstərən istirahət mərkəzlərində çalışanlar vaxtaşırı xüsusi kurslarda iştirak edir, təcrübələrini artırırlar. Çünki bu sahədə fəaliyyət göstərənlərin əsas vəzifəsi bu səfalı guşələrdə, əsrarəngiz təbiətin qoynunda istirahətin və xidmətin təşkilinin müasir tələblər səviyyəsində qurulmasına nail olmaqdan ibarətdir.

Turist təkcə pul xərcləyən qonaq deyil, həm də informasiya daşıyıcısıdır. Səfər etdiyi yerlərin təbiəti, yol-rizi, səfalı bulaqları, insanları və xarakterik xüsusiyyətləri barədə öz ölkəsinə apardığı məlumatın qiyməti yoxdur. İstirahət zamanı qarşılaşdıqlarını yaddaşında saxlayan turist sonradan həmin yerlərə yeni qonaq axınının təşkilatçısına çevrilir. Yəqin, elə buna görədir ki, Qubaya gələn turistlərin sayı ilbəil artır.

Qubanın bir çox istirahət mərkəzləri bu il turistlərə xüsusi sürprizlər hazırlayıb. Birincisi, xidmət personalı milli geyimlərimizdən istifadə edəcəklər. İkinci, süfrə mədəniyyətinə xüsusi yanaşılacaq. Milli adət-ənənəmizə, mətbəxdə, süfrədə səliqə-sahmana, nəzakətli davranışa da xüsusi fikir veriləcək. Yeri gəlmişkən qeyd edək ki, "Məstərgah", "Nazlı bulaq", "Retro", "Şane", "Cənnət bağı" istirahət mərkəzlərində yaradılan kurslarda təcrübə toplayan gənclərin çoxu belə yüksək xidmət qaydalarına artıq yiyələnmişdir.

Qeyri-neft sektorunun inkişafı bir çox sahənin inkişafında sıçrayışa səbəb olur. Turizm belə sahələrdən yalnız biridir. Bu gün isə Qubada təkcə turizm deyil, eyni zamanda milli adətlərimizə uyğun bir brend formalaşır. Gələcəkdə onun daha da inkişaf etməsi qaçılmazdır. Çünki şimal bölgəsinin, o cümlədən Qubanın turizm potensialı zəngin və rəngarəngdir.

***Akif ƏLİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***





